# İNGİLİS DİLİ ÜZRƏ SƏVİYYƏ İMTAHANI (İDSİ)

## İMTAHANIN XÜLASƏSİ

ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanı (İDSİ) ADA Universitetinin bakalavr proqramına qəbul olunmuş tələbələrin ingilis dili səviyyəsini müəyyən etmək üçün tərtib olunmuş testdir. İmtahanın məqsədi tələbənin ingilis dili üzrə bilik və bacarıq səviyyəsini müəyyən etmək və nəticəyə əsasən:

1. tələbəni Akademik və Peşəkar Məqsədlər üçün İngilis dili (EAPP) proqramında müvafiq səviyyəyə yerləşdirmək; və ya
2. ingilis dili səviyyəsi yüksək olduqda, tələbəni birbaşa bakalavr proqramına qəbul etməkdir.

## İMTAHANIN TƏSVİRİ

İDSİ iki mərhələdən ibarətdir.

**I mərhələyə** Praktik İngilis Dili və Oxuyub-anlama komponentləri daxildir.

1. **Praktik İngilis Dili** bölməsi tələbənin ingilis dilinin qrammatikası və söz ehtiyatı biliklərini, o cümlədən, dil strukturları və zamanlardan düzgün istifadə bacarıqlarını qiymətləndirir.

2. **Oxuyub-anlama** bölməsinə akademik materiallar, kitablar, qəzet və jurnal məqalələrindən götürülmüş bir və daha çox abzasdan ibarət mətnlər üzərində iş daxildir. Tələbələr bu mətnləri oxuyaraq ideyaların məntiqi əlaqələndirilməsi, əsas və inkişafetdirici ideyaların müəyyən edilməsi, mətnin başlıca məqsədinin aşkar olunması və söz ehtiyatı ilə bağlı müxtəlif suallara cavab verirlər.

**II mərhələ** Esse yazısı, Dinləmə və Danışıq komponentlərindən ibarətdir.

1. **Esse yazısı** bölməsi bir müstəqil yazı tapşırığından ibarətdir. Tələbələrdən 45 dəqiqə ərzində 280-300 sözdən ibarət esse yazmaq tələb olunur. Bu bölmə tələbələrin fikirlərini aydın şəkildə inkişaf etdirmək və təşkil etmək, verilmiş mövzuya uyğun cavab təqdim etmək, fikirlərini səbəb və nümunələrlə dəstəkləmək, uyğun qrammatika, söz ehtiyatı, cümlə quruluşu və diskurs markerlərindən istifadə etmək bacarıqlarını qiymətləndirir. Tələbələrdən giriş, əsas hissə və nəticədən ibarət əlaqəli və yaxşı strukturlaşdırılmış esse yazmaları gözlənilir.

2. **Dinləmə** bölməsi üzrə imtahan iki hissədən ibarətdir: 1) dinləyib-anlama; 2) dinləyib-qeyd götürmə.

a) Dinləyib-anlama hissəsinə cümlələr, dialoqlar, qısa söhbətlər, müsahibə və mühazirələr, həmçinin onlara aid suallar daxildir. Burada tələbələrdən funksional və idiomatik ifadələrin daşıdığı mənanı tapmaq, əsas və xüsusi məlumatı, mətnaltı mənaları və mətnlərin hansı prinsiplər üzərində qurulduğunu müəyyənləşdirmək tələb olunur.

b) Dinləyib-qeyd götürmə alt bölməsi mühazirəyə əsaslanan 4–6 açıq tipli sualdan ibarətdir. Tələbələr suallara qeydlərindən istifadə edərək cavab verməlidirlər. Bu alt bölmədə ayrıca vərəqdə qeyd götürmək tələb olunur. Mühazirə səsləndirildikdən sonra tələbələrə cavab vərəqləri veriləcək və onlar sualları cavablandırmaq üçün qeydlərindən istifadə edəcəklər.

3. **Danışıq** bölməsi üç sualdan ibarətdir. Tələbələrə hər sualı cavablandırmaq üçün bir dəqiqə vaxt verilir. Bu bölmə tələbələrin fikirlərini aydın ifadə etmək, verilmiş suallara uyğun cavab vermək, cavablarını məntiqi şəkildə təşkil etmək, düzgün qrammatika, uyğun söz seçimi və düzgün tələffüz bacarıqlarını qiymətləndirir. Tələbələr cavablandırmaq istəmədikləri halda üç sualdan birini dəyişmək imkanına malikdir. Başqa sözlə, hər bir tələbə yalnız bir dəfə bu imkandan istifadə edə bilər.

**Qeyd:** ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanının formatı və məzmunu ilə aşağıda göstərilmiş linkdəki nümunə testi vasitəsi ilə daha ətraflı tanış olmaq mümkündür.

https://drive.google.com/drive/folders/1Xw1c4CdMr1jAyUNRLc_lDS-d8bhry2Cl?usp=drive_link

ADA Universitetinə qəbul olmuş hər bir tələbədən İngilis dili üzrə Səviyyə İmtahanında iştirak etmək tələb olunur. Tələbə yalnız aşağıda qeyd olunmuş imtahanlardan birinin nəticəsini təqdim etdiyi halda ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanından azad oluna bilər.

• IELTS Academic 6.0 və yuxarı
• TOEFL iBT 75 və ya yeni TOEFL iBT şkalası üzrə 4 bal — 21 yanvar 2026-cı il və ya sonrasında verilmiş imtahanlar üçün
• PTE 50
• Duolingo 105 və yuxarı

**İMTAHANIN FORMATI**

ADA Universitetinin İngilis dili üzrə Səviyyə İmtahanı iki mərhələdən ibarət olmaqla iki gün davam edir.

<table>
<tr><td rowspan="5">Birinci gün</td><td rowspan="3">I MƏRHƏLƏ<br>50 bal</td><td rowspan="2">I hissə: Praktik İngilis dili</td><td>Sual sayı</td><td>Təqribi vaxt</td></tr>
<tr><td>40 sual<br>Hər birinə 0,5 bal<br>(20 bal)</td><td>30 dəqiqə</td></tr>
<tr><td>II hissə: Oxuyub- anlama</td><td>30 sual<br>Hər birinə 1 bal<br>(30 bal)</td><td>60 dəqiqə, cavab vərəqlərinin doldurulması daxil olmaqla</td></tr>
<tr><td rowspan="2"></td><td colspan="3">30 dəqiqəlik fasilə<br><br>Qeyd: Bütün tələbələr II mərhələnin Yazı İmtahanında iştirak etməlidirlər. Bununla belə, I mərhələdə 25 baldan aşağı nəticə göstərən tələbələrin yazılı cavabları qiymətləndirilməyəcək. Bu cavablar yalnız tələbələrin yazı bacarıqları üzrə ehtiyaclarını müəyyənləşdirmək məqsədilə istifadə olunacaq və həmin ehtiyaclar EAPP proqramında tədris olunan Akademik Yazı kursları vasitəsilə qarşılanacaq.</td></tr>
<tr><td>Esse yazısı</td><td>1 tapşırıq<br>(15 bal)</td><td>45 dəqiqə</td></tr>
<tr><td colspan="5">Qeyd:<br><br>ADA Universitetinin İDS imtahanının I mərhələsində 50 baldan 25 və daha yüksək nəticə göstərən tələbələr II mərhələnin digər imtahanlarında iştirak etmək üçün növbəti günlərdə ADA Universiteninə dəvət olunacaqlar.<br><br>ADA Universitetinin İDS imtahanının 50 ballıq I mərhələsində 25 baldan aşağı nəticə göstərən tələbələr II mərhələnin qalan komponentlər üzrə imtahanlarında iştirak etməyəcəklər. Onlar I mərhələdə topladıqları bala əsasən EAPP proqramına yerləşdiriləcəklər.</td></tr>
<tr><td rowspan="3">İkinci gün</td><td rowspan="3">II MƏRHƏLƏ<br><br>70 bal</td><td>I hissə: a) Dinləyib-anlama</td><td>40 sual (hər birinə 0.5 bal)<br>(20 bal)</td><td>70 dəqiqə<br>(cavab kartlarının doldurulması daxil olmaqla)</td></tr>
<tr><td colspan="3">15 dəqiqəlik fasilə</td></tr>
<tr><td>I hissə: b) Dinləyib-qeyd götürmə</td><td>4-6 sual<br>(10 bal)</td><td>25 dəqiqə</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | | **ADA kampusunda 90 dəqiqəlik fasilə**<br>**Qeyd:**<br>Tələbələr yalnız I və II mərhələlərin digər komponentləri üzrə ümumi göstəriciləri 62 baldan yüksək olduqda Danışıq İmtahanında iştirak edə bilərlər.<br>I və II mərhələlər üzrə, Danışıq İmtahanı istisna olmaqla, ümumi balı 62 bal və ya daha aşağı olan tələbələr topladıqları ballara əsasən EAPP proqramında yerləşdiriləcəklər. | | |
| | | II hissə: Danışıq | 3 sual<br>**(25 bal)** | 5 dəqiqə |

**Qeyd:** 1-ci və 2-ci mərhələlər üzrə orta nəticəsi və Danışıq imtahanından aldığı nəticə 62% və ya daha yüksək olan tələbələr EAPP proqramından azad edilir və Foundation (bakalavr) proqramına qəbul olmaq hüququ qazanırlar.

İmtahanın hər hansı mərhələsi üzrə nəticəsi (1-ci və 2-ci mərhələlərin orta nəticəsi və ya Danışıq imtahanının nəticəsi) 62%-dən aşağı olan tələbələr bakalavr proqramına qəbul oluna bilməz və müvafiq EAPP səviyyəsinə yerləşdirilirlər.

**İMTAHAN QAYDALARI:**

1. İmtahan verənlər özləri ilə **şəxsiyyət vəsiqəsinin əsli və elektron ünvana göndərilmiş imtahana buraxılış vərəqəsini çap edib** gətirməli və imtahan başlamazdan **bir saat əvvəl** ADA Universitetinin binası qarşısında olmalıdırlar.

2. İmtahana 20 dəqiqədən artıq gecikən tələbələr imtahana buraxılmayacaqlar.
3. II mərhələnin Dinləyib-anlama komponenti başladıqdan sonra imtahan otağına heç bir imtahan verən buraxılmayacaqdır. Lakin imtahan verənlər Dinləyib-anlama komponenti başa çatdıqdan sonra Dinləyib-qeyd götürmə və Danışıq hissələrində iştirak edə bilərlər.

   **Qeyd:** Dinləyib-anlama hissəsini buraxan tələbə bu komponent üzrə 0 bal alacaqdır.

4. İmtahan verənlər özləri ilə yumşaq sadə qələm, diyircəkli qələm və pozan gətirməlidirlər.
5. Ciddi sağlamlıq problemi olmadığı halda imtahan verənlərə imtahan zalını tərk etməyə icazə verilməyəcəkdir. Buna görə də özünüzlə bir şüşə su gətirməyiniz xahiş olunur.
6. İmtahan verənlərə imtahan sessiyaları və ya fasilələr zamanı aşağıdakı əşyaları yanlarında saxlamaq və ya onlardan istifadə etmək icazəsi verilmir:

   **a. istənilən növ çantalar:** əl çantaları, bel çantaları, daşıma çantaları və s.

   **b. elektron cihazlar.** Elektron cihazlara mobil telefonlar, smartfonlar, smart saatlar, planşetlər, noutbuklar, kameralar, audio və ya video yazıcılar, qulaqlıqlar, simsiz qulaqlıqlar, tərcümə cihazları, kalkulyatorlar, elektron lüğətlər, yaddaş qurğuları, həmçinin ünsiyyət, səsyazma və ya videoyazı,

tərcümə, internetə çıxış və ya süni intellekt dəstəyi imkanı verən hər hansı cihaz və ya tətbiq daxildir, lakin siyahı bunlarla məhdudlaşmır.

**c. imtahan köməkçi vasitələri.** Bu vasitələrə kitablar, broşürlər, qeydlər, lüğətlər, sinonimlər lüğətləri, çap materialları, əlyazma materialları, elektron resurslar və ya imtahan zamanı kömək edə biləcək hər hansı digər material və ya resurslar daxildir, lakin siyahı bunlarla məhdudlaşmır.

7. Sinifdaxili fasilə zamanı yalnız çox vacib olduğu hallarda tələbələrə nəzarətçinin müşayiəti altında otağı tərk etmək icazəsi verilə bilər.

**Qeyd:** Yuxarıdakı qaydaların hər hansı bir bəndini pozan tələbənin imtahan nəticələri dərhal ləğv ediləcəkdir.

8. İmtahan nəzarətli olacaq. İmtahan verənlər imtahan zamanı nəzarətçilərin bütün təlimatlarına əməl etməlidirlər. Bir şifahi xəbərdarlıqdan sonra nəzarətçi imtahan verəndən otağı tərk etməsini tələb etmək hüququna malikdir və həmin tələbənin imtahan nəticələri ləğv olunacaqdır. İmtahanın məzmunu ilə bağlı nəzarətçiyə hər hansı sual vermək qadağandır.

9. İmtahanı başqasının adından vermək istəyən və ya köçürməyə cəhd edən tələbəyə qarşı ciddi ölçü görüləcək və bu cür namizədlərin imtahan nəticələri etibarsız sayılacaqdır.

10. Hər hansı səbəbdən imtahanda iştirak edə bilməyən namizədlərə əvəzləyici imtahan verilmir.